**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏMƏKDAR RƏSSAM FƏRMAN QULAMOV YARADICILIĞINDA MÖVZU RƏNGARƏNGLİYİ VƏ BƏDİİ TƏSVİR VASİTƏLƏRİ

İxtisas: 6215.01 – Təsviri sənət

Elmi sahəsi: Sənətşünaslıq

İddiaçı: **Gülnaz Oruc qızı Mədətova**

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Rəna Həbib qızı Abdullayeva** |
| Rəsmi opponentlər: | Əməkdar incəsənət xadimi, professor<br>**Çingiz Əbdül Məcid oğlu Fərzəliyev** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Nigar Abdulla qızı Axundova** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Ramil Afiq oğlu Quliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD2.34 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>______________________ | Xalq rəssamı, professor<br>**Fuad Məmməd-Emin oğlu Salayev** |
| Dissertasiya şurasının elmi katibi:<br>______________________ | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Xanım Zəlimxan qızı Əsgərova** |
| Elmi seminarın sədri:<br>______________________ | Xalq rəssamı, professor<br>**Natiq Kamal oğlu Əliyev** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Əməkdar rəssam Fərman Səməd oğlu Qulamov dəst-xətti ilə seçilən mənzərə, natürmort, portret janrlarında yaratdığı əsərlərlə müasir Azərbaycan rəngkarlığında əhəmiyyətli yer tutan sənətkarlardandır. O, 1945-ci ildə Astarada anadan olmuşdur. Rəssamlıq təhsilini Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində və Tbilisi Dövlət Rəssamlıq Akademiyasında almışdır. 1978-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Fərman Qulamovun əsərləri respublikada, Fransa, Almaniya, Polşa, Finlandiya, Türkiyə, İran və Əlcəzairdə təşkil olunmuş beynəlxalq sərgilərdə nümayiş etdirilmişdir. Rəssamın 1993-cü ildə Almaniyanın Fuhlendorf şəhərində, 1995-ci ildə Vəcihə Səmədova adına Sərgi Salonunda, 1996, 1998-ci illərdə Moskva Beynəlxalq Sərgi Salonunda, 2005-ci ildə isə Bakıda Səttar Bəhlulzadə adına Mərkəzi Sərgi Salonunda fərdi sərgiləri keçirilib.

1994-cü ildə istedadlı rəssam 1993-cü il üzrə ən yaxşı əsər üçün I mükafata layiq görülmüş və "Bakılı" Cəmiyyətinin təsis etdiyi Beynəlxalq "Humay" mükafatı ilə təltif olunmuşdur.

2009-cu ildə Moskvada təşkil olunmuş "Ənənə və müasirlik" adlı III Beynəlxalq İncəsənət festivalında Fərman Qulamov festivalın ən yüksək nominasiyası olan "Rəngkarlıqda ənənələrin saxlanması" üzrə mükafata layiq görülmüşdür. Rəssamın əsərləri Moskvanın Tretyakov Qalereyasında, Şərq Ölkələrinin Açıq Muzeyində, eləcə də bir çox xarici muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılır.

Keçən əsrin 70-ci illərindən başlayaraq ömrünün sonunadək (2016) dəzgah rəngkarlığı ilə məşğul olan istedadlı rəssam milli dəyərlərlə yanaşı, müasir tendensiyaların meydana gəlməsi ilə şərtlənən, bir-birindən fərqli, dolğun kompozisiya quruluşlarına malik əsərlər yaratmışdır.

Dissertasiya işinin aktuallığı onunla bağlıdır ki, müasir Azərbaycan təsviri sənətində (1975-2015-ci illər) ayrı-ayrı rəssamların yaradıcılığı haqqında dissertasiya işləri və monoqrafiyalar yazılsa da, bu dövrdə yaşayıb yaradan, dəzgah rəngkarlığının portret, mənzərə, natürmort janrlarında öz dəst-xətti ilə seçilən Əməkdar rəssam Fərman Qulamov yaradıcılığı sənətşünaslıq baxımından tədqiqata ilk dəfə kompleks şəkildə cəlb edilib.

Fərman Qulamov sənətinin elmi araşdırılması, əldə edilən qənaətlər milli incəsənət tariximizi zənginləşdirməklə bərabər, gənc rəssamların üslub axtarışlarına təkan vermiş olacaq.

XX əsr Azərbaycan təsviri sənətinin inkişafına böyük töhfələr vermiş Əməkdar rəssamın yaradıcılığı bu günə qədər sistemli, geniş şəkildə araşdırılmamışdır. Fərman Qulamovun muzeylərdə, qalereyalarda, şəxsi kolleksiyalarda və ailəsində saxlanılan əsərləri bu günə qədər bədii özünəməxsusluq baxımından tədqiqata cəlb edilməyib. Onun yaradıcılığı haqqında informativ xarakterli qısa məlumatlara qəzet səhifələrində, internet saytlarında yer verilsə də təəssüflər olsun ki, Fərman Qulamovun mövzu etibarilə çoxşaxəli, üslub etibarilə tamamilə orijinal yaradıcılığı müstəqil tədqiqat obyekti olmayıb.

Rəssamın yaradıcılığı barədə, əsasən, sərgiləri ilə bağlı sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev[1], sənətşünas Mirzə Talıbov[2] və jurnalist Məhəmməd Nərimanoğlunun yazıları istisna olmaqla heç bir sənətşünas araşdırmaları yoxdur. Bu mənada 70-ci illərdən Azərbaycan təsviri sənətində tamamilə fərqli, özünəməxsus yer tutan Əməkdar rəssam Fərman Qulamovun yaradıcılığının tədqiqata cəlb edilməsi məqsədəuyğundur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini Fərman Qulamovun yaradıcılığında əsas yer tutan rəngkarlıq əsərləri təşkil edir. Dissertasiyada rəssamın əsərlərinin böyük qismi elmi təhlilə cəlb edilib. Rəssamın albom, jurnal və bukletlərdə nəşr olunmuş əsərləri ilə bərabər, şəxsi kolleksiyalarda, ailəsində saxlanılan əsərləri tədqiqat obyektinin bazasını xeyli genişləndirib.

Tədqiqatın predmeti 70-ci illərdən başlayaraq günümüzə qədər müasir Azərbaycan rəssamlığının inkişafında Fərman Qulamovun rolunu və yerini müəyyənləşdirməkdir.

---

[1] Əliyev, Z. Rənglərə vurğun rəssam [Elektron resurs] / Bakı: 3 mart, 2018. - s.24 URL: http://www.anl.az/down/meqale/kaspi_az/2018/mart/580432.jpg

[2] Talıbov, M. Rəssam Fərman Qulamov [İzomaterial] M.Talıbov, B.Mirzəzadə; Qala Rəsm Qalereyası. – Bakı: Qismət, 2009. – 16 s.

Dissertasiyada Fərman Qulamov yaradıcılığı zaman və məkan çərçivələrində araşdırılıb. Zaman çərçivələri XX əsrin 70-ci illərindən başlayaraq – 2015-ci ilədək olan dövrü, coğrafi çərçivələri isə rəssamın yaşayıb-yaratdığı Azərbaycan, təhsil aldığı Gürcüstan və yaradıcılıq ezamiyyətlərində olduğu ölkələri əhatə edir.

Dissertasiya işində rəssamın yaradıcılığındakı yeni və tamamilə fərqli tendensiyalar araşdırılıb və konkret nəzəri müddəalarla təsbit olunmuşdur. Fərman Qulamov yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orijinal ifadə vasitələrinin təhlili tədqiqat predmetinin qayəsini təşkil edir

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın Əməkdar rəssamı Fərman Qulamovun yaradıcılığını sistemli təhlil edərək, rəssamın özünəməxsusluğunu, dəsti-xəttini, yaradıcılıq metodunu və inkişaf mərhələlərini müəyyən etməkdir. Eyni zamanda rəssamın yaradıcılıq üslubunun xüsusiyyətlərini müəyyənləşdirib, əsərlərini həmdövr Azərbaycan təsviri sənəti kontekstində təhlil etmək tədqiqatın əsas məqsəd və vəzifəsini təşkil edir.

Tədqiqatın başlıca məqsədlərindən biri də rəssamın yaratdığı tabloları ikonoqrafik və ikonoloji baxımdan təhlil etmək, janr və mövzu baxımından sistemləşdirərək Fərman Qulamov yaradıcılığına müasir dövrün prizmasından yanaşmaqdır.

Fərman Qulamov yaradıcılığının müasir Azərbaycan incəsənəti kontekstində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Fərman Qulamovun bu günə qədər öyrənilməyən əsərlərini təhlil etmək;
- Fərman Qulamovun portret yaradıcılığının bədii xüsusiyyətlərini müəyyənləşdirmək;
- Fərman Qulamov yaradıcılığında mənzərə janrının özünəməxsusluğunu araşdırmaq;
- Fərman Qulamovun yaradıcılığında natürmort janrının bədii xüsusiyyətlərini müəyyənləşdirmək;
- Rəssamın yaradıcılığında fəlsəfi motivləri müəyyənləşdirmək;
- Rəssamın yaradıcılığında postmodernist tendensiyaları tədqiq etmək;

- Fərman Qulamov yaradıcılığının müasir Azərbaycan sənətşünaslıq elmində yerini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat prosesində metodoloji əsas kimi kompleksli metoddan istifadə edilib və aşağıdakı üsullara üstünlük verilib:

- Tədqiqata cəlb edilən əsərlərlə bağlı bütün material və məlumatları dəqiqləşdirən mənbəşünaslıq;
- Fərman Qulamovun Azərbaycan təsviri sənətində yerini və rolunu müəyyən edən, onun rəssam kimi formalaşmasına təsir göstərən mühiti müəyyən edən tarixi-müqayisəli;
- Rəssamın əsərinin bədii həllinin xüsusiyyətlərini, süjetli səhnələrinin təsviri, tipoloji xüsusiyyətlərinə görə təhlilini, onların ideya və mövzu dairəsini müəyyən etməyə imkan verən formal stilistik;
- Fərman Qulamovun əsərlərinin bədii mahiyyətini və məzmununu təhlil etmək imkanı verən ikonoloji;
- Rəssamın əsərlərinin fəlsəfi mənasını, oradakı real və mifik obrazların və rəmzlərin araşdırılmasına imkan verən ikonoqrafik.

Fərman Qulamovun tədqiqata cəlb edilən əsərlərinin böyük bir qismi təhlil edilmiş, rəssamın yaradıcılığına həsr olunmuş yazılar ümumiləşdirilərək müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat eləcə də Avropa və milli rəssamlıq məktəbinin Fərman Qulamov yaradıcılığına təsiri öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Fərman Qulamovun portretlərinin əsas mövzusu insan və insanların bir-birinə olan münasibətləridir;
- Rəssam yaratdığı portretlər vasitəsi ilə dünya və insan fəlsəfəsi konsepsiyası baxımından ümumiləşdirilmiş psixoloji obrazlar yaratmışdır;
- Fərman Qulamov portretlərində bu janrın tələblərindən kənara çıxmağa cəhd göstərmiş və obrazları konkret tarixi dövr və məkan kontekstində həll etməyərək onların bir bədii fenomen kimi təsvirinə nail olmuşdur;
- Fərman Qulamovun portretlərində modelə münasibət, obrazın mənəvi aləminin açılması personajın üz cizgiləri, pozasının

plastikliyi və geyiminin xüsusiyyətləri vasitəsilə həyata keçirilməsi rəssamın portret yaradıcılığının ana xəttini təşkil etmişdir;

- Fərman Qulamovun çoxfiqurlu kompozisiyalarında şəxsiyyətlərarası münasibətlərin təsviri tamaşaçı tərəfindən obrazların mənəvi dünyasının açılmasına zəmin yaratmışdır;
- Bütün yaradıcılığı boyu mənzərə janrına müraciət edən rəssam ənənəvi mənzərə anlayışına istinad etsə də, əsərləri üçün seçdiyi müxtəlif obrazlı-plastik və ifadə vasitələri, təsvirlərin kompozisiya quruluşu ilə öz fərdi üslubunu yarada bilmişdir;
- Fərman Qulamovun gözlənilməz rakurslardan istifadə edərək kompozisiyalarında bütün elementləri əlaqələndirərək tabloların qavranılmasında vahid təəssürat yaratmağa məharətlə nail olmuşdur;
- Fərman Qulamovun həyat hadisələrinə münasibətinin dünyagörüşündə əksi öz bədii həllini rəssamın müxtəlif janrlı əsərlərindəki fəlsəfi motivlər, psixologizm və lirizmdə tapmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Azərbaycan sənətşünaslığında Fərman Qulamov yaradıcılığı ilk dəfə olaraq əhatəli və sistemli şəkildə, bədii və elmi müstəvidə araşdırılmış, mərhələlərə bölünərək onların inkişaf istiqamətləri və yaradıcı nailiyyətləri müəyyənləşdirilmişdir;
- İlk dəfə olaraq rəssamın müxtəlif muzeylər, fondlar, şəxsi kolleksiyalar və ailəsində saxlanılan əsərləri janr və mövzu baxımından sistemləşdirilərək xronoloji ardıcıllıqla təqdim edilmişdir;
- İlk dəfə olaraq Fərman Qulamovun yaradıcılığında istifadə etdiyi bədii metodların xüsusiyyətləri, mühitin təsvirində reallıq və şərtilik aşkar edilərək onların üzvi əlaqəsi üzə çıxarılmışdır;
- İlk dəfə olaraq Fərman Qulamov yaradıcılığında mənzərənin yeri XX əsrin sonu – XXI əsrin əvvəllərindəki Azərbaycan rəngkarlığının ümumi tendensiyaları kontekstində müəyyən edilmişdir;

- İlk dəfə olaraq Fərman Qulamovun mənzərələrində təbiət obrazlarının təfsir yolları, reallığın bədii qavranılma üsulları rəssamın əhval-ruhiyyəsindən asılı olaraq hər bir obraza fərdi yanaşması müəyyən edilmişdir;
- İlk dəfə olaraq təbiət obrazları vasitəsilə əsərlərindəki lirizm, romantik əhval-ruhiyyə rəssamın özünəməxsus estetik baxışları prizmasından təhlil edilərək, ideyalarını reallaşdırmaq üçün seçdiyi kompozisiya, dekorativ həlli və stilizasiya göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatdan rəssamlıq təmayüllü ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan rəssam və sənətşünas tələbələrə "Müasir Azərbaycan təsviri sənət tarixi", "Çağdaş Azərbaycan rəngkarlığında üslublar" mövzularında xüsusi kursların tədrisində istifadə edilə bilər. Rəssamın yaradıcılıq təcrübəsinə aid müddəalar gənc rəssamlar üçün əməli tövsiyələr rolunu oynaya bilər. Tədqiqatın nəticələri və müddəaları çağdaş Azərbaycan təsviri sənətinin zənginliyini, növ və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirməyə imkan verir.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 10 məqalə, bir çox beynəlxalq və respublika elmi-nəzəri konfrans məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya iki fəsil, beş paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 9639; I Fəsil – 104827; 1.1. – 28008; 1.2. – 38479; 1.3. – 38340; II Fəsil – 95992; 2.1. – 53869; 2.2. – 42123; Nəticə – 7189 işarə olmaqla dissertasiyanın ümumi həcmi 217647 işarədən ibarətdir. Tədqiqat işinin məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN ÜMUMİ MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Girişdə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın üç paraqrafdan ibarət olan **"Əməkdar rəssam Fərman Qulamovun əsərlərində mövzu və janr rəngarəngliyi"** adlı birinci fəslinin birinci paraqrafı **"Fərman Qulamovun portret yaradıcılığının bədii xüsusiyyətləri"** adlanır. Burada qeyd olunur ki, XX əsrin ikinci yarısından sonra Azərbaycan rəngkarlığının portret janrında böyük dəyişikliklər baş vermişdi. Bu dəyişmə rəssamların azad düşüncəsi, şəxsi fikirləri, şəxsiyyətə fərdi münasibəti kimi axtarışlarda özünü göstərirdi. Rəssamlar yaratdıqları təsviri sənət nümunələrində intellektual düşüncə baxımından mərkəzi yeri əxlaqi və fəlsəfi məna daşıyan mənəvi dəyərlərə daha çox üstünlük verməyə başladılar. Azərbaycan rəssamları portret janrında ənənəvi portretçilik və müşahidədən, düşüncə və dramatik gərginliyə, bir çox hallarda isə fəlsəfi və psixoloji dərinliklərə qədər mürəkkəbləşən maraqlı və dəyərli əsərlər yaratdılar. Bütün bu qeyd edilənlər 50-60-cı illərdən başlayaraq günümüzədək davam etdirilməkdədir. Bu istiqamətdə fəaliyyət göstərən və özünün tamamilə fərdi üsluba malik əsərləri ilə Azərbaycan rəngkarlığında iz qoymuş sənətkarlardan biri olan Əməkdar rəssam Fərman Qulamovdur. Onun yaratdığı portretlər özünün dərin isti və soyuq rənglərinin təzadı, sərt yaxıları, işıq tonunda qaranlığı işıqlandıran obrazın düşüncə tələb edən mənəvi aləminin açıqlanması ilə tamaşaçısını maraqlandırır.

Rəssamın portret ustalığı onun əsərlərindəki kompozisiyalarının təkrarolunmazlığında özünü büruzə verir.

*"Portretin obrazı həmişə insanın yaşadığı mühitin ayrılmaz hissəsi, cəmiyyətə açılan pəncərə, dövrün sənədi kimi qəbul edilib.*

*Hegel demişdir ki, rəssamlığın tərəqqisi, təcrübələrdən başlayaraq, onu portretə qədər saflaşdırmaqdan ibarətdir"*[3].

Portret janrında əsərlər yaradan müasir rəssamlar insanın fərdiliyini əks etdirmək üçün orijinal bədii yanaşmalara müraciət edirlər. Fərman Qulamovun yaratdığı kiçik formatlı "Avtoportret", "Portret", "Qoca kişi", "Portretlər", "Qadın portreti", "Dostumun portreti", "İnsan", "Mərhəmətli insan", "Düşüncəli", "Portret. Etüd" və s. əsərləri həm kompozisiya, həm də texnika etibarilə digər portretlərdən seçilir. Bu portretləri müqayisə edərkən görürük ki, müəllif kompozisiya quruluşunu fiqurların yerləşdirilməsi və rəng seçimi ilə həll etməyə çalışıb.

Fərman Qulamov, əsasən, cəmiyyətdə populyar olan, tanınmış şəxsiyyətlərdən daha çox hər kəsə tanış olmayan insan portretlərini yaratmağa üstünlük vermişdir. Bunun səbəbi isə ona yaxın olan xarakterik cizgilər vasitəsilə şəxsiyyətin özünün-özünə olan münasibəti, daxili rahatlığı və daxili konflikti istiqamətindən çıxış etməkdir. Belə münasibət öz izahını ümumiləşdirmə xarakteri daşımaqdan uzaq mənəvi dəyərlərdə tapır. Məsələn, "Dostumun portreti" əsəri bu mənada böyük maraq doğurur. Ölçüsü 15x10 sm. olan və yağlı boya ilə işlənmiş portret özünəməxsus icra texnikası və yalnız belə formata xas olan vasitələrdən istifadə edilməklə yaradılıb. Təsvir edilən obraz düzbucaqlı müstəvini demək olar ki, bütövlüklə tutub. Müəllif kompozisiya həllini bütövlüklə məzmuna tabe etmişdir. Qeyd edilən əsərdəki dinamizm rənglərin sərt vuruşu, qalın yaxılar, işıq-kölgə oyunun mükəmməl həlli ilə həyata keçirilmişdir. Önə baxan obrazın baxışlarındakı dərinliyi rəssam xüsusi işıq effektləri ilə həll etmişdir. Qara fon üzərində parlaq ifadələr obrazın üz cizgilərinin daha dərin qavranılmasına imkan yaradır. Sağ tərəfdən salınan işıq isə portretin alından aşağı üz cizgilərinin xüsusi ilə vurğulayaraq daxili aləmin açılmasında əsas rol oynayan gözlərin ifadə dərinliyini daha aydın şəkildə çatdırılmasına imkan verir: *"Hər bir sənət əsəri kimi portret də özünü kompozisiya forması vasitəsilə dərk edilir və portretin kompozisiya həlli onun quruluşdan asılı olur. Bunun*

[3] Керимова, Р. Азербайджанская советская портретная живопись / Р.Керимова, – Баку: АН Азерб. ССР, - 1962. – с.9.

*nəticəsində çox vaxt kompozisiyanın mərkəzində, tamaşaçı qavrayışının diqqət mərkəzində modelin üzü durur”*[4].

Müqayisə üçün tanınmış sənətkar, Xalq rəssamı Tofiq Ağababayevin yaradıcılığında xüsusi yer tutan, xarakterinə yaxından bələd olduğu rəssam həmkarı Rasim Babayevin portretinə müraciət edək. Niyə məhz bu əsəri müqayisə üçün seçirik? Maraq doğuran suala cavab olaraq Tofiq Ağababayevin obrazın bütün xarakterik cizgilərinə bələd olduğu və şəxsi münasibətindən qaynaqlanan yaxın dostunun portretinin orijinal təsvir dilini göstərmək olar. Burada diqqət çəkən əsas amil isə cizgilərin daha dəqiq canlandırılmasıdır. Fərman Qulamovun da yaratdığı “Dostumun portreti” əsəri haqqında bu qənaətə gəlmək olur ki, o şəxsən tanıdığı insanın psixoloji mühitini canlandırmaqla səmimiyyəti, arzuları, istəkləri ustalıqla tabloya köçürə bilib.

“Dostumun portreti” əsasən tünd çalarla, sifətin bədii ifadəsində isə işıq vasitəsilə açılmış rəng tonları ilə yerinə yetirilmişdir. Qeyd edildiyi kimi Fərman Qulamov portret vasitəsilə qarşısına ancaq zahiri təsvir yaratmaq məqsədi qoymayıb. O, yaxından tanıdığı dostunun daxili aləminin incəliklərini, xarakterik xüsusiyyətlərini canlandırımağa çalışıb və istəyinə müvəffəqiyyətlə nail olub.

Əsərlərində dünyəvi mövzularla yanaşı, eyni zamanda milli mövzulara toxunan, onu fərdi yaradıcılıq stilinə uyğun bədii həllə tabe edərək, tamaşaçısını hər zaman heyrətləndirməyi bacaran Fərman Qulamovun belə əsərlərindən biri olan “Qadın portreti” özünün kəskin rəng yaxıları, sərt vuruşları ilə diqqəti cəlb edir. Əsərin təqdim etdiyi zəngin xarici görünüş milli qadın obrazının geyim və bəzək əşyalarının təsvirində daha parlaq, təzadlı, isti və soyuq rənglərin kəskin keçidləri ilə özünü göstərir. Bütün bu zənginlik ağ çaların qalın yaxısı üzərində daha parlaq ifadəsi ilə qarşımıza çıxır.

Fərman Qulamovun portretləri sırasında mənəvi aləmin, həyatın sarsıntılarını ifadə edən qadın obrazının təsvirində modelin həssaslığını rəssam kompozisiya həlli ilə bərabər, həm də koloristik

---

[4] Неверова, И. А. Художественный портрет как форма постижения человека в истории культуры: / дис. на соискание ученой степени кандидата культурологии. / – Санкт-Петербург, 2008. – с.19.

həll vasitəsi ilə canlandırmağa çalışmışdır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev "Rənglərə vurğun rəssam" adlı məqaləsində yazır: *"...Onun "çərçivəli" real-gerçəkçi sənətinin başlıca göstəricisi olan anatomik dəqiqliyə etibarsızlıq göstərməsi isə o vaxta qədər əldə olunan bədii-estetik məziyyətlərə yeni görkəm bəxş etdi. Bu gün onun sənətsevərlərə tanış olan əsərlərini zəngin olduğu qədər də xaotik olan milli və bəşəri bədii mənbələrə baş vurmağının və yaradıcılıqla dərkinin özünəməxsus nəticələri hesab etmək olar"*[5].

Fərman Qulamovun portret yaradıcılığının təhlilli rəssamın milli rəngkarlıq formaları ilə yanaşı, klassik Avropa rəngkarlıq ənənələrindən təsirlənərək öz yaradıcılıq imkanlarını genişləndirməsini, onları yeni formalarla zənginləşdirərək böyük dəyərə malik əsərlər yaratdığını deməyə əsas verir.

Dissertasiyanın birinci fəslinin **"Fərman Qulamovun yaradıcılığında mənzərə janrının özünəməxsusluğu"** adlı ikinci paraqrafında rəssamın müxtəlif forma-biçimdə bədii görüntüyə gətirdiyi mənzərə əsərləri tədqiqata cəlb olunub. Rəssamları ilhama gətirən təbiət motivlərinin rəngarəngliyi bəzən mücərrədliyi, bəzən sadəliyi ilə diqqətləri cəlb edir. Sənətşünas Leyla Axundzadə yazır: *"70-ci illərdə mənzərə rəngkarlığının üstünlük təşkil etmə tendensiyası haqqında danışanda süjet motivlərinin sabitliyini qeyd etmək lazımdır - bunlar Abşeron kəndləri və ya anonim kənd təbiətinin sakit guşələrinin mənzərələridir."*[6]. Məsələn, Səttar Bəhlulzadənin "Əmircan", "Naxçıvan. Axşamçağı Ordubad bağlarında", "Qudyalçay vadisi" əsərlərində incə lirizm, Mikayıl Abdullayevin "Dağlar", "Naxçıvan dağları", "Gəzintində" kimi əsərlərindəki təbiətin çılğın rəngləri, Toğrul Nərimanbəyovun "Göyçay bağları", "İçərişəhər" adlı əsərlərindəki romantik duyğular böyük ustalıqla öz uğurlu həllini tapmışdır.

Əməkdar rəssam, istedadlı sənətkar Fərman Qulamovun mənzərələrindəki özünəməxsusluğu isə hər şeydən öncə təbiətin

---

5 Əliyev, Z. Rənglərə vurğun rəssam [Elektron resurs] / Bakı: 3 mart, 2018. - s.24 URL: http://www.anl.az/down/meqale/kaspi_az/2018/mart/580432.jpg

6 Ахундзаде, Л.Д. Пейзажная живопись Советского Азербайджана (1920-1980): / дис. на соискание ученой степени кандидата искусствоведения. / – Баку, 1984. – с. 143.

sadəcə real görünüşünü deyil, onun daxilində gizlənən sirrin açması kimi dəyərləndirmək olar. Hər bir mənzərə əsərində sənətkar rənglərin yaratdığı məkan psixologiyasının bədii əksini həm təbiətin öz daxilindəki gözəlliyi, həm də yaradıcı təxəyyülü ilə gerçəkləşdirməyi bacarmışdır. Belə tabloları sırasında "Günaydın", "Səhər", "Mənim motivim", "Landşaft", "Cənub küləyi", "Kəndimiz", "Lerik. Səhər", "Lənkəran", "Ağ mənzərə", "Yaşıl mənzərə", "Yaz", "Mənzərə", "Kənd mənzərəsi", "Yeni gün", "Abşeron" və digər əsərlərin adlarını qeyd etmək olar. Həmin əsərlərdəki dərin təəssürat, sakitliyin yaratdığı həyəcan, təbiət və insan münasibətinin mənzərədəki yaratdığı atmosferin bədii həlli çalarların məharətli yaxıları ilə Fərman Qulamov yaradıcılığını səciyyələndirmişdir.

Qeyd edək ki, Fərman Qulamov fərqli cərəyanların xüsusiyyətlərindən təsirlənir, bir çox hallarda isə üslubları qarışdırmağı sevirdi. Onun əsərlərindəki rəngarənglik, mövzu müxtəlifliyi, tablolarının zəngin kolorit həlli də məhz bunun nəticəsidir. Tamamilə fərqli bədii ifadə tərzinə malik "Günaydın" əsərində istedadlı rəssam kubizmdən təsirlənərək, təbiəti həndəsi formalarla təsvir edib, kütlə və ritm arasında ustalıqla əlaqə yaratmışdır. Optimist fırça vuruşları ilə lirik-romantik ruhlu mənzərəni təsvir edən rəssam sanki izləyicilərinə "günaydın" deyərək yeni günə açılan sabahın müjdəsini verir.

Sənətkar bu əsərində sanki memarlıq mühitini əks etdirən obyektlərə plastik element kimi baxaraq təbiəti əks etdirmişdir. Rəssam digər mənzərələrindən fərqli olaraq "Günaydın" əsərində rəng çalarlarından daha az istifadə etmiş, əsasən ağ tona üstünlük vermişdir.

Oxşar təsvir üslubunun realizmə daha yaxın forması ilə Xalq rəssamı Nazim Bəykişiyevin "Abşeronda qış" əsərində də rastlaşırıq. Burada Abşeron təbiətinə məxsus ağ daşlı qədim tikililərin arasından dənizin boylanması, daha çox açıq rənglərin istifadəsi əsərlər arasındakı oxşarlığı şərtləndirir. Lakin Fərman Qulamovun tablosundakı ifadə tərzi özünün daha romantik-fəlsəfi mahiyyəti ilə seçilməkdədir. Qar bəyazlığında verilmiş hündür uzunsov yuvarlaq tikililər, həndəsi formaların meydana gətirdiyi pəncərə tipli detallar, günbəzli formalar qədim memarlıq stilinin simvolik mənzərəsini canlandırır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Kübraxanım Əliyeva

bu haqda belə qeyd edir ki, *"Fərman Qulamovda mövzu maraqlı tərzdə qurulur. Köklü abşeronçu olmayaraq Fərman Qulamov Abşeronun abu-havasını yüksək dərəcədə duyurdu"*[7].

Rəssamın mənzərə janrında yaratdığı mükəmməl kompozisiya həllinə malik əsərləri sırasında "Cənub küləyi" adlı tablosunun adını xüsusilə qeyd etmək olar. Bu tabloda da bundan əvvəlki əsərlərdə olduğu kimi rənglərin isti və parlaq çalarlarından xüsusi olaraq istifadə edilmişdir. "Cənub küləyi" əsərində real təsviri canlandıran detallar sırasında təbiət mənzərəsinin daha klassik deyil, artıq bir qədər müasirləşmiş forması ilə ənənəvi tərənnümü sintez təşkil edir. Çəkilmiş düz yol, gövdələri əhənglənmiş cərgə ilə düzülən ağaclar və hələ də öz qədim formasını saxlayan kiçik evlər bir-biri ilə uğurlu şəkildə əlaqələndirilmişdir.

Sənətşünas L.Lixatskaya yazır: *"Mənzərə janrında mühüm amillərdən biri mənzərənin təsviri ilə real landşaft arasındakı əlaqədir. Burada təsvirin predmeti insanı əhatə edən təbiət hadisələri və formalarıdır. Bu halda incəsənət üçün reallığın əks olunmasında mühüm əhəmiyyət kəsb edən rəssamın düşüncə və hisslərinin spesifik ifadəsi olan obrazdır. Mənzərə obrazı insanın şüurunda əks olunmuş landşaftdır. Lakin incəsənətin əsas xüsusiyyətlərindən biri olan şərtilik həmişə sənət əsəri ilə reallıq arasındakı fərqi vurğulayır"*[8]. Bütün bu deyilənləri Fərman Qulamov yaradıcılığında görmək mümkündür.

Fərman Qulamovun yaradıcılığında mənzərə janrının inkişafı və spesifikliyi təhlil edilərək müəyyən edilmişdir ki, rəssamın bu janrda olan əsərləri sırasında plener rəngkarlığı ilə yanaşı, bəzi əsərlərinin süjet və motivləri yaddaş-xatirə xarakteri daşıyır. Eyni zamanda rəssamın mənzərələri üçün seçdiyi koloristik həll bilavasitə onların bədii dilinin və lirizminin təsir gücünün çatdırılmasına yönəldilib.

---

[7] Əliyeva, K. Rəssamlarımızın yaradıcılığında Abşeron mövzusu // - Bakı: Mədəni-maarif, - 2005. №7, - s.14.

[8] Лихацкая, Л.Н. Структурные особенности пейзажного образа в произведениях В.Терещенко // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, - 2012. №11, Ч.1. с.116-121.

Birinci fəslin **“Fərman Qulamovun yaradıcılığında natürmort janrının bədii xüsusiyyətləri”** adlanan son – üçüncü paraqrafında rəssamın natürmort əsərləri təsvir və təhlil edilir. Göstərilir ki, Əməkdar rəssam, tanınmış sənətkar Fərman Qulamovun yaradıcılıq fəaliyyətini əhatə edən dövrün əvvəllərindən – 70-ci illərdən başlayaraq Azərbaycan rəssamlarının digər sahələrdə olduğu kimi natürmort janrında da yaratdıqları əsərlərdə realistik ifadə vasitələrini görmək mümkündür. Milli rəngkarlıqda adı gedən janrın əsasının Bəhruz bəy Kəngərli tərəfindən qoyulması elə həmin dövrdən bu sahəyə olan marağı artırmışdır. Bu mənada Tağı Tağıyevin “Qızıl güllər” və “Yığışdırılmamış süfrə”, Mikayıl Abdullayevin “Limonlar”, Toğrul Sadıqzadənin “Musiqi alətləri” və “Azərbaycan keramikası”, Xalidə Səfərovanın “Payızgülü”, Toğrul Nərimanbəyovun “Nar ilə natürmort”, Tahir Salahovun “Qladiolus çiçəyi”, Mahmud Tağıyevin “Meyvələr” və digər əsərlərdə rəssamların cansız əşyalara özünəməxsus münasibəti, onların tamaşaçını duyğulandırmaq keyfiyyətlərini qabartmaq istəyi özünü büruzə verir. Həmin əsərlərdə daha çox diqqəti çəkən şux kolorit, formaların real görüntüsünün əks olunmasıdır.

Fərman Qulamovun bu sahədəki fəaliyyətinə nəzər saldıqda onun real-gerçəkçi tendensiyalarla yanaşı, abstrakt, improvizə edilmiş formalarla qarşımıza çıxan sənət nümunələrinə müəlliflik etdiyini görürük. Daha çox milli xüsusiyyətləri ilə izah edilən rəngkarlığın sədlərini aşaraq fərdi dəsti-xətti ilə seçilən həmin əsərlərdə rəssam bəzən əlaqəli, bəzən isə əlaqəsiz elementlərin təsvirinə formal rəngkarlıq stilinə əsaslanmışdır. Bu mənada Kamal Əhməd, Rasim Babayev, Cavad Mircavadov, Fazil Nəcəfov kimi rəssamların da adını çəkmək mümkündür ki, onların hər birinin özlərinə məxsus üslub xüsusiyyətinə malik əsərləri təsviri sənətimizin inkişaf xəttini müəyyən etmişdir.

Ümumiyyətlə, 1980-90-cı illərdə Azərbaycan rəssamları klassik və müasir sənət üslubları arasında bir təcrübə keçirərək hər iki istiqamətin ortaq kontekstində əsərlər yaratmağa meyl edirdilər. Bu da mövcud ideologiyadan uzaqlaşmağa, sənətkar fərdiliyini təsdiqləməyə imkan verirdi. Fərman Qulamov yaradıcılığının araşdırması həmin

istiqamətin yüksək formada digər sahələrlə yanaşı, eyni zamanda natürmort janrında da öz əksini tapdığını sübut edir.

“Olanı çəkirəm, olmayanı yox” devizi ilə XIX əsrdə müasir mövzulu əsərləri ilə təsviri incəsənətdə impressionizmin əsasını qoyanlardan biri olan Eduard Mane Fərman Qulamovun pərəstiş etdiyi rəssamlardan biri idi. Rəssamın demək olar ki, bütün janrlarda yaratdığı bəzi əsərlərdə Eduard Mane təsirinə rast gəlmək olur. Belə əsərlərdən biri də Fərman Qulamovun 1999-cu ildə kətan üzərində, yağlı boya ilə yaratdığı “Sahildə balıq” tablosudur. Bu əsər mövzu və kompozisiya baxımından Eduard Manenin “Qızıl balıq”, “Balıqla natürmort” əsərlərinə yaxındır. Belə ki, rəng həllində yox, horizontal müstəvidə yerləşdirilmiş təsvirin plastikasında Eduard Manenin təsirinin izlərini görmək olar.

Fərman Qulamovun “İki proyeksiyalı natürmort”undakı detalların olduqca rəngarəng, parlaq, çoxluq təşkil etməsinə baxmayaraq əşyalar və meyvələr nəzərdən qaçmayan və gözü yormayan bir sadəlik daxilindədirlər. Ön planda verilmiş iki kiçik meyvə, bəyaz uzunsov qabın içərisində verilmiş digər kiçik meyvələr, lampa, dolçalar, rəngli örtüklərin aralıqlardakı təsviri özünün daha aydın rəngləri və işıq tonunun düzgün qurulması nəticəsində bağlı olaraq dəqiqliklə qavranılır. Seçilən obyektlərin sadəliyi, hər bir proyeksiyada fərqli olmasına baxmayaraq daha tünd tonlar, işıq, kölgə nəticəsində ciddi və mistik atmosferi gücləndirir.

Dissertasiyanın iki paraqrafdan ibarət olan **“Əməkdar rəssam Fərman Qulamovun yaradıcılığında bədii təsvir vasitələri”** adlı ikinci fəslinin birinci paraqrafı **“Fərman Qulamovun yaradıcılığında fəlsəfi motivlər”** adlanır. Burada qeyd olunur ki, insan, onun ideyaları, hissləri, həyat fəlsəfəsi – hər zaman incəsənətin əsasında dayanan problem kimi müxtəlif mövzu, üslub və cərəyanlarda öz əksini tapmışdır. Varlığın fəlsəfədəki geniş mənasından asılı olmayan ideyalar bəsitliyi və ya mücərrədliyi, insanı dünyanın ən xoşbəxti və ya ən bədbəxti edən hisslər, tükənməyən insan fantaziyası Fərman Qulamov yaradıcılığının fəlsəfi motivlərini təşkil edir. Bir sözlə, rəssamın mücərrəd mövzulu əsərlərinin dərin mənasının qavranılmasında həyat fəlsəfəsinin bədii dərki dayanmışdır.

Məşhur filosof Şopenhauer “Dünya: iradə və təsəvvür kimi” kitabında yazır: *“Yalnız dərdin və ya xoşbəxtliyin baş verdiyi an bizi güclü bir tərzdə, qeyri-adi dərəcədə sarsıdır – dərin kədərlə və ya gur sevinclə, amma həm o, həm də bu, sürətlə yox olur, ona görə yox olur ki, onlar illüziyaya əsaslanmışlar”*[9]. Fərman Qulamovun bir çox əsərlərində həmin bu fəlsəfi düşüncənin təsviri açıqlaması böyük ustalıq, dərin həssaslıqla verilmişdir. “Emalatxanada”, “Fobiya”, “Azadlığa doğru”, “XXI əsrin astanasında”, “Bizansın fəthi”, “Ünsiyyət”, “Darvaza”, “İki proyeksiya”, “Ana körpəsi ilə”, “Söhbət. Ana və qızı”, “Gecə və gündüz”, “Allah bizə kömək olsun”, “Müzakirə”, “Dialoq”, “Gecənin sirri”, “Mücərrəd fikir”, “Mücərrədə doğru”, “Strukturun fəzada görünüşü”, “Sufi”, “Anladın ya yox?”, “Kimdir orada?”, “Xeyir və şər”, “Məxfi söhbət”, “Bələdçi”, “Kompozisiya”, “Gənc qız və kişi”, “Ailə”, “Səfil qızın geri qayıtması”, “Dərviş” və s. əsərlərində saf optimist fəlsəfi anlayış özünün yüksək təsvir formasını təqdim edir.

Fərman Qulamovun insanın daxili aləminin hisslərinin dərkinə həsr edilmiş əsərlərindən biri də “Fobiya” adlanır. Əsərin əsas məzmunu insan və onun ən böyük problemlərindən biri olan qorxu hissi təşkil edir. Kompozisiyanın mərkəzində cılız vücudlu kişi obrazı özünün xarakterik təsviri ilə diqqəti çəkir. Sanki o, yaşadığı mühitin qorxu və vahimə yaradan reallıqlarından qaçaraq təskinlik tapmaq üçün yer axtarır. Rəssam isə obrazın iç dünyasının dramatizm ini təsvir etmək üçün təzadlı rənglərin aqressiv çalarlarından ustalıqla istifadə etmişdir. Tablonun yaratdığı əhval-ruhiyyə təzadlı rəng keçidləri – narıncı, anidən partlayan bəyaz işıq, sarı, qırmızı, qızılı rəng ifadələrinin arasında dolaşan qara ləkələrin, kölgələrin həlli ilə reallaşdırılmışdır. Getdikcə artmağa başlayan bu kölgələr obrazın həm arxa hissəsində, həm də önündə dayanmış, onu sanki mühasirəyə salaraq qaçmasına imkan vermir.

Qeyd edildiyi kimi bütün sifət cizgiləri, vücudu ilə qorxusunu ifadə edən kişi obrazı onu əhatə edən bu qorxu dünyasından xilas olmağa çalışır. Lakin bu dünya onun öz daxilindədir, öz içindən

[9] Şopenhauer, A. Dünya: iradə və təsəvvür kimi / A.Şopenhauer. - Bakı: Zəkioğlu, - 2009. - s.459.

qaçmağa çalışan insan xarakteri, qurtuluşun daxilindəki qorxu ilə mübarizədə olduğunu belə anlamaqda acizdir.

Rəssam fobiyanın təsvirində xəstə psixologiyanı canlandırmaqla yanaşı, onun fəsadlarını, yıxılan bir dünyanı ifadə edir. Bu elə bir dünyadır ki, artıq sevinclər bitmiş, hisslər tükənmiş, yeganə var olan qüvvə insanın özünü inandırdığı, yoxdan var etdiyi qorxudur. Obrazın qorxu qarşısında gücsüzlüyünün inandırıcılığı ətrafa dağılmış kölgələr və təzadlı rənglər vasitəsilə rəssam tərəfindən məharətlə canlandırılmışdır.

Rəssamın maraq doğuran, özünün dünya dərkinə əsaslanan, həyatın əsl mahiyyətinin nədən ibarət olduğunu açıqlamağa yönələn fəlsəfi məzmunlu rəngkarlıq tablolarından biri də "Ana körpəsi ilə" adlanır. Əsər qadın obrazının simasındakı məhrəmlik və mərhəmət, sakitlik hissləri Qerxard Rixterin rəngkarlıq əsəri olan "Ana və uşaq" əsərindəki obraza çox yaxındır. Bu yaxınlığı əsərin təkcə mövzusunda deyil, kompozisiya və rəng həllində, qadın obrazının təsvirində - baxışlarında, pozasında da görmək mümkündür.

Postmodernist fəlsəfənin tanınmış nümayəndəsi olan Umberto Ekonun postmodernizmin parlaq nümunəsi olan "Qızılgülün adı" fəlsəfi romanında yaranışın sirrini açmağa çalışıb. Filosof-yazıçının yaşamın mənası barədə *"Bütün ruhu dincliklə dolduran mistik coşqunluq saatlarını bizim kimi yaşamayanlar o dəqiqələrin ləzzətini anlaya bilməzlər"*[10] deyimini yaranış və ölüm, məhəbbət və nifrət, ana və övlad, bütövlükdə həyatın əsl mahiyyətinin nədən ibarət olduğunu açıqlamağa yönələn həyati məqamları təsvir edən əsərlərin əhəmiyyətində görmək lazımdır.

Fransız filosofu Jil Delöz (1925-1995) incəsənət və psixoanalitikanın bağlılığı ilə əlaqədar maraqlı fikirlər irəli sürüb. O, "Frensis Bekon: hissin məntiqi" əsərində yazır: *"Demək istəyirik ki, rəssamlığın isteriya ilə xüsusi əlaqəsi var. Çox sadədir. Rəsm, təsvirin altında, təsvirin arxasında birbaşa mövcudluğu aşkar etməyə çalışır. Rənglər isə özü sinir sisteminə birbaşa təsir edən bir sistemdir. Söhbət rəssamın isterikasından deyil, rəssamlığın isterikasından gedir. Rəssamlıq vasitəsilə isteriya sənətə çevrilir. Daha doğrusu, rəssamın*

[10] Umberto, E. Qızılgülün adı / E.Umberto, - Bakı: Qanun, - 2012. – s.117.

*köməyi ilə isteriya rəsmə çevrilir”*[11]. Bu sözləri Fərman Qulamovun “Anladın ya yox?” tablosuna da aid etmək olar.

Müəllif əsəri üfüqi düzbucaqlı müstəvidə yerləşdirmişdir. Kompozisiyanın ağırlığı əsasən sol tərəfə düşür, müəllifin sağ tərəfdə saxladığı qatı boyalarla həll edilmiş məkan əsərin mövzusuna tabe olur. Əsər qaranlıq fon üzərində işıq effektləri ilə gücləndirilmiş iki nəfərin obrazlı ifadəsi ilə həll edilmişdir.

Yaradıcılığında formaları improvizə edərək onlara fəlsəfi məzmun verməyə üstünlük verən Fərman Qulamovun bu əsərindəki portretin təsviri həqiqətlə fantaziya arasındakı sərhədi yox edir. Rəssam “Kimdir orada?” əsərində yaratdığı personaj vasitəsilə mistik mühit təsirinin bədii ifadəsini təqdim etmişdir.

*“Rəssamlar təsviri sənətdə bədii obraz yaradarkən müxtəlif cərəyanlara və istiqamətlərə baxmayaraq, maksimum ifadəliliyi və emosionallığı çatdırmaq məqsədi ilə iki əsas texnikaya - üz cizgilərinin mimikası və duruşun deformasiyasına və ya əksinə - insan bədəninin sakit vəziyyətinin gözəlliyinin təsvir edilməsinə müraciət edirlər”*[12].

Kompozisiyadakı real əşyaların improvizəsini məzmun baxımından təhlil etdikdə görürük ki, rəssamın bir az real, bir qədər də mistik fantaziyasının nəticəsi olan obrazın yaradılmasında dərin məna dərki dayanmışdır. Adətən bostan və tarlalarda qoyulan müqəvva modelinin bəzi detallarının real insan təsviri ilə sintezi əsərin məqsədində dayanan məzmun açıqlamasını verir.

Yeni bədii təfəkkür, plastik forma, emosional təsir gücünü artıran yaradıcılıq axtarışları Fərman Qulamovun bütün əsərlərində özünü dönə-dönə təsdiqləyir. “Kimdir orada?” əsərində rənglərin sərt ştrixlərlə harmonik ifadəsi, məzmunun qeyri-adi açıqlaması portretin fəlsəfi dərkinə yönəli uğurlu üsuldur.

İkinci fəslin **“Fərman Qulamovun yaradıcılığında postmodernist tendensiyalar”** adlanan son paraqrafında rəssamın postmodernizm cərəyanında yaratdığı əsərlər tədqiqata cəlb olunmuşdur. Bu paraqrafda göstərilir ki, elmi ədəbiyyatlarda

---

[11] Делёз, Ж. Фрэнсис Бэкон: Логика ощущения / Жиль Делёз ; пер. с фр. А.В. Шестакова; под ред. С.Л.Фокина. – СПб.: Machina, - 2011. – с.57.

[12] Дёмин, Г.С. Художественный образ в живописи // Вестник Тюменского государственного университета. Философия. - 2011. №10, - с. 179-185.

mədəniyyət və incəsənətdə postmodernizm cərəyanının meydana gəlməsi, mahiyyəti, yarandığı vətən haqqında müxtəlif fikirlər yürüdülür.

S.V.Zelenko yazır ki, *"Postmodernizmi termin kimi ilk dəfə olaraq, alman filosofu R.Panvits (1881-1969)1917-ci ildə yazdığı "Avropa mədəniyyətinin böhranı" kitabında işlədib"*[13]. Böyük Rusiya Ensiklopediyasındakı "Postmodernizm" məqaləsində isə yazılıb: *"Postmodernizm termini ilk dəfə 1870-ci ildə ingilis rəssamı J.W.Chapman tərəfindən impressionizmdən sonrakı rəngkarlığı müəyyən etmək üçün işlədib"*[14]. V.P.Ratnikov "Postmodernizm: mənşəyi, inkişafı, mahiyyəti" məqaləsində yazır: *"Yeni fəlsəfi paradiqmanın əsas nümayəndələri olan K.Marks, F.Nitşe və S.Freyd öz zamanlarından xeyli əvvəl - XX əsrin bütün fəlsəfəsinə, o cümlədən postmodernizmin inkişafına böyük təsir göstərirdilər"*[15].

Gördüyümuz kimi, elmi ədəbiyyatda postmodernizmin cərəyan və ya üslub olması, meydana gəlməsi dövrü və vətəni barədə məlumatlarda fikir müxtəlifliyi mövcuddur. Bəziləri 1950-1960-cı illərdə Qərbi Avropa və ABŞ təsviri sənətində pop-art cərəyanının meydana gəlməsi ilə bağlayır. Yuxarıda istinad etdiyimiz Böyük Rusiya Ensiklopediyasındakı "Postmodernizm" məqaləsində qeyd olunub ki, *"ilkin təzahür forması pop-art olan postmodernizm termin kimi təsviri sənətdə 1970-ci illərdən istifadə olunmağa başladı və bununla kütlə və elitar mədəniyyət arasındakı uçurumun aradan qaldırılmasına nail olundu"*[16]. Qüzel Fayzrahmanova "Başqırdıstan və Tatarıstan təsviri sənətində postmodernist tendensiyalar" adlı dissertasiyasının avtoreferatında yazır: *"Postmodernizm üslub kimi təsviri incəsənətdə 1950-ci illərin sonunda yaranmağa başlayıb və*

[13] Зеленко, С.В. Постмодернизм как феномен культуры и мировоззренческая концепция восприятия эпохи [Электронный ресурс] / URl: file:///C:/Users/help/Downloads/Zelianko%20(1).PDF

[14] Постмодернизм. Большая российская энциклопедия [Электронный ресурс] / URL:https://bigenc.ru/philo sophy/text/3162376

[15] Ратников, В.П. Постмодернизм: истоки, становление, сущность // Философия и общество. - 2002. №4 (29), - с.127-132.

[16] Постмодернизм. Большая российская энциклопедия [Электронный ресурс] / URL:https://bigenc.ru/philo sophy/text/3162376

*1970-ci illərdə tam formalaşıb”*[17]. V.M.Dianova “İncəsənətin postmodernist fəlsəfəsi: mənşəyi və müasirlik” kitabında yazır: *“Amerikalı nəzəriyyəçi F.Ceymisonun fikrincə, postmodernizmin yaranmasını ABŞ-da müharibədən sonrakı bumdan (1940-cı illərin sonu – 1950-ci illərin əvvəllərinə qədər), Fransada isə - Beşinci Respublikanın qurulması dövrünə (1958) aid edilə bilər”. Buna baxmayaraq, “Xaq D.Silverman iddia edir ki, “postmodernizmin vətəni yoxdur”. Bu gün postmodernizmə müxtəlif ölkələrin mədəniyyətlərində rast gəlinir, lakin Jak Derridanın sözlərinə görə, ən çox postmodern ölkə Yaponiyadır”*[18].

Yuxarıda qeyd edilən istinadları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, postmodernizm bir mədəniyyət fenomeni kimi ilkin olaraq təsviri incəsənətdə təzahür etmiş, yalnız bundan sonra incəsənətin digər sahələrində özünün əksini tapmışdır.

Azərbaycan rəssamlarının əsərlərində postmodernizm əlamətlərinə 70-ci illərin sonundan, əsasən isə 80-ci illərdən başlayaraq yaradılan əsərlərdə rast gəlmək olar. Azadlıq hissi ilə yaşayan, “nəyi istəyirəm, onu yaradıram” devizini irəli sürən, üsyankar əqidəli, ideologiya və siyasətdən uzaq olan müxtəlif nəslin nümayəndələri olan Azərbaycan rəssamları elitar və kütləvi mədəniyyət arasında səddi qıraraq, əsərlərində qrotesk obrazlar, ilk performanslar yaratdılar. Zəmanəsində “üsyankar” yaradıcılıqları ilə fərqlənən bu rəssamların əsərlərinin əsas xarakterik cəhəti onların tablolarında postmodernizmə xas eklektikanın olması – müxtəlif üslubların birləşməsidir.

Postmodernist tendensiyaların Fərman Qulamov yaradıcılığına təsirinin özünü hansı səviyyədə büruzə verməsini rəssamın bu istiqamətdə olan mövzu və forma axtarışları müəyyənləşdirmişdir. Deyilənləri Fərman Qulamovun “Gecəyarısı”, “Uçuş”, “Enerji”, “Günaydın”, “Gecənin sirri”, “Nəvəm ilə”, “Ovqat”, “Rəqs”, “Müjdə”, “Səhər oyanışı”, “Kompozisiya”, “Gecə”, “Rəssam və

---

[17] Файзрахманова, Г.Р. Постмодернистские тенденции в изобразительном искусстве Башкортостана и Татарстана: / Автореферат дис. на соискание ученой степени кандидата искусствоведения. / - Екатеринбург, 2007. - с.11.

[18] Дианова, В.М. Постмодернистская философия искусства: истоки и современность. / В.М.Дианова. - Санкт-Петербург: Петрополис, - 1999. - с.156.

model", "Fəzada kompozisiya", "Köçərilər", "Zəvvarlar", "Söhbət", "Ünsiyyət", "İntibah", "Məişətdə", "Bazar" və s. əsərlərində aydın görmək olar.

Fərman Qulamovun "Gecənin sirri" adlı tablosunda günün qeyri-ənənəvi səhnəsini tərənnümü maraq doğurur. Rembrandt yaradıcılığının pərəstişkarı olan rəssamın bu dahinin əsərlərinin təsiri altında yaratdığı tablolar özünün yüksək dəyəri ilə diqqəti hər zaman cəlb edir. "Gecənin sirri" əsəri də bu qəbildəndir.

"Gecənin sirri" məzmun etibarilə Rembrandtın 1632-ci ildə yaratdığı məşhur "Doktor Tulpun anatomiya dərsi" tablosunun təsiri aydın görünür.

Fərman Qulamov həm bədii və kompozisiya həlli, həm də tarixi baxımdan yüksək dəyərə malik olan "Doktor Tulpun anatomiya dərsi" tablonun təsiri altında yaratdığı "Gecənin sirri"ndə Rembrandtın kompozisiya stilini əxz etdiyini öz fərdi yaradıcılıq prizması baxımından həll edərək, klassik rəngkarlıq kanonlarından fərqli, eklektikaya müraciət edərək postmodernist üslubda maraqlı bir əsər yarada bilmişdir. Ümumiyyətlə, Fərman Qulamovun çoxfiqurlu əsərlərində Rembrandt yaradıcılığının təsirlərinin izlərini görmək mümkündür.

Amerikalı alim İhab Hassan "Postmodernist mədəniyyəti" kitabında XX əsrin 80-ci illərində postmodern mədəniyyətinin əlamətlərini sistemləşdirib[19]. Əsas göstərilən iştirak, sükut, dekonstruksiya, ritorika, istək, kinayə, qeyri-müəyyənliyi və digər əlamətləri Fərman Qulamovun postmodernist üslubda yaratdığı əsərlərdə aydın görmək mümkündür.

Rəssamın "Bazar" adlı əsərində insanların daha sıx olduğu məkanın təsviri öz bədii həllini daha tünd çalarlarda tapıb.

Tünd göy rəngdə verilmiş göy üzünün tutqun çalarları ilə havanın boğunuq tərənnümü altında verilmiş təsvir bizləri qədim bazar mühitinin mistik mənzərəsi ilə qarşılaşdırır. Sıralanan dağların ətəyində yer alan açıq hava bazarı səhnənin önündən uzanaraq uzaqdan görünən kiçik daxmalı ağ evlərin olduğu kəndə doğru davam edir. Rəssam burada satılan malları və yaxud qarışıq insan kütləsini

---

[19] Ихаб Хассан. Культура постмодернизма [Электронный ресурс] / URL:https://knigogid.ru/books/365825-kultura-postmodernizma

deyil, zəhmətkeş insanın həyat tərzini ifadə etməyə çalışmışdır. Yerdə bardaş qurub oturaraq qarşılarındakı müxtəlif əşyaları satan çadralı qadın obrazları olan epizoddakı qədim klassik mənzərənin təsvirinin yaratdığı nostalji hisslər tamaşaçısını təsirləndirir. Arxada ulağın üzərində olan iki insan təsvirinin verilməsi isə bu təsiri xüsusi olaraq vurğulayır. Bazar əslində insanların sıx olduğu, qarışıq tiplərin bir arada verildiyini şərtləndirən bir məkandır. Qeyd edilən əsərdə isə bir yolun kənarında sıralanmış satıcıların yerdə oturaraq gedən üç nəfərin arxasınca baxması, yenidən buradan bir yolçunun keçməsini səbir və təmkinlə gözləmə səhnəsi öz bədii həllini olduqca təsirli formalarda tapmışdır.

Ümumiyyətlə, Fərman Qulamov adi həyat səhnələrini deyil, qeyri-adi məzmunda olan, tamaşaçısını düşündürən, onun fəlsəfəsinə varmağa məcbur edən hadisə təəssüratlarını yaratmağı əsərləri üçün əsas məzmun olaraq seçirdi. Bu xüsusiyyəti demək olar ki, rəssamın əksər əsərlərinə aid etmək olar.

**Nəticədə dissertasiyanın əsas müddəaları yekunlaşdırılmışdır:**

- Milli ənənələrə, həm də dünya rəngkarlığında mövcud olan bədii prinsiplərə müraciət rəssamın yaradıcılığının daha da ifadəli olmasında öz əksini tapmışdır;
- Fərman Qulamov yaratdığı müxtəlif portretlərdə obrazların hər birinin fərdi xüsusiyyətlərini əks etdirərək, eyni zamanda özünün modelə, bütövlükdə isə insanın, təbiətin, rəssamı əhatə edən mühitin dərkinə münasibətini ifadə etmişdir;
- Fərman Qulamovun portretlərinin təsir gücü yaratdığı obrazın təkcə zahiri təsvirinin cazibəsində deyil, seçdiyi texnikada və əsərin kompozisiya həllində, bədii və plastik ifadə vasitələrindədir;
- Fərman Qulamov rəng tonlarının seçilməsi ilə diqqəti çəkən mənzərələrində xüsusi dekorativlik yaradaraq tablonun psixoloji mühiti haqqında təəssüratı çatdırmağa nail olmuşdur;
- Fərman Qulamovun yaradıcılığında mənzərə janrının inkişafı və spesifikliyi təhlil edilərək rəssamın bu janrda olan əsərləri sırasında plener rəngkarlığı ilə yanaşı, bəzi əsərlərinin süjet və

motivlərinin yaddaş – xatirə xarakteri daşıması müəyyən edilmişdir;
- Fərman Qulamovun mənzərələrinin həmdövr Azərbaycan rəssamlarının mənzərə janrında olan əsərləri ilə müqayisəli təhlili əsasında rəssamın təbiət təsviri təfəkkürünün özünəməxsusluğu əsaslandırılmışdır;
- Fərman Qulamovun mənzərələri üçün seçdiyi koloristik həll bilavasitə onların bədii dilinin və lirizminin təsir gücünün çatdırılmasına yönəldilmişdir;
- Fərman Qulamovun natürmortlarında kompozisiya, konstruktiv həll və bədii təsvir ifadələri baxımından milli rəngkarlıq ənənələrinin təsiri, işıq-kölgə oyunlarının istifadəsində və üslubların qarışdırılmasında isə Avropa rəssamlarının yaradıcılıqlarına məxsus xüsusiyyətlər özünü aydın göstərir;
- Rəssam bir çox natürmortlarında istifadə etdiyi formal və ya abstrakt kompozisiyalar vasitəsilə bu əsərlərin qurulma məntiqini izləməyə imkan yaratmışdır;
- Fərman Qulamov əsərlərində mücərrəd təfəkkür, abstrakt düşüncə prinsiplərini özünəməxsus şəkildə: kompozisiya və rəng həlli, qalın rəng yaxıları və işıq-kölgə effektləri vasitəsi ilə ifadə etməyi bacarmışdır;
- Fərman Qulamovun XXI əsrin əvvəllərində yaratdığı portret, mənzərə və natürmortlarda istifadə etdiyi üsullar, texnika və bədii ifadə vasitələri, dekorativlik və rəmzlərdən istifadə, kompozisiya və məzmundan uzaq detalların əlavə edilməsi rəssamın postmodernizmə meylini təsdiq edir;
- Fərman Qulamovun bütün janrlarda istifadə etdiyi eklektika Avropa və milli rəngkarlıq ənənələrində olan postmodern üslubunun təsiridir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. Fərman Qulamovun yaradıcılığında mənzərə janrının bədii xüsusiyyətləri // "İncəsənət və mədəniyyət problemləri", AMEA Memarlıq və İncəsənət İnstitutu. Bakı, 2019. №4 (70), - s. 26-33.
2. Əməkdar rəssam Fərman Qulamovun yaradıcılığında natürmort janrı // "ADMİU III Respublika elmi-nəzəri konfransı", - Bakı: ADMİU, 19-20 dekabr 2019, - 2019, - s. 82-88.
3. Своеобразность описаний человека в произведениях Заслуженного художника Фармана Гуламова // - Шымкет: Сборник материалов международного арт-симпозиума «Возможности художественного творчества в формировании этнотолерантности народов Казахстана в евразийском музыкальном пространстве». – 17-18 казан (октябрь), 2019. - с. 63-66.
4. Художественные особенности портретного творчества Заслуженного художника Фармана Гуламова // - Прага, Чехия: Paradigmata poznani. – 2019. №2, - с. 120-123.
5. Postmodernist tendencies in the creativity of Farman Gulamov // "İncəsənət və mədəniyyət problemləri", AMEA Memarlıq və İncəsənət İnstitutu. Bakı, 2019. №3 (77), - s. 21-27.
6. Əməkdar rəssam Fərman Qulamovun yaradıcılığında fəlsəfi motivlər [Elektron resurs] / Musiqi dünyası. №2 (83), - 2020. URL:http://www.musigi-dunya.az/article/82/82_9.html
7. Əməkdar rəssam Fərman Qulamovun əsərlərində lirizm // "Doktorantların və gənc tədqiqatçıların XXIV respublika elmi konfransı". Bakı: ADMİU, - 23-24 noyabr 2021. – s. 351-354.
8. Əməkdar rəssam Fərman Qulamovun natürmortlarında bədii ifadə vasitələri // "Sənət akademiyası". Bakı, 2021. №1 (13), s. 78-82.
9. Fərman Qulamov yaradıcılığında məkan tərənnümünün bədii ifadəsi // "Elmi əsərlər", - Bakı: ADMİU, 2021. №30, - s. 135-140.
10. Художественные особенности картин Фармана Гуламова // - Część2. "Colloquium-journal". Варшава, Польша, 2021. №34 (121), - с. 19-21.

Dissertasiyanın müdafiəsi 17 iyun 2022-ci il tarixində saat 11.00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.azra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 may 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10 may 2022
Kağızın formatı: A5
Həcm: 42131
Tiraj: 100